*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 247-254*

https://doi.org/10.62837/2024.11.247

**JALƏ İLYASOVA**
Azərbaycan Dillər Universiteti,doktorant
jaleilyasova 001@ gmail.com

# AZƏRBAYCAN ETNOLİNQVİSTİKASINDA ŞƏKİ TOPONİMLƏRİNİN YERİ VƏ ROLU

**Açar sözlər:** türk tayfaları, etnolinqvistika, etnik tarix, Şəki tponimləri, milli-mədəni semantika.

Əvvəlcə etnolinqvistika elmi haqqında. Bu elmin vətəni Amerika Birləşmiş Ştatları və banisi U O R F sayılır. Etnolinqvistikanın formalaşması Amerika hindularının dilini və mədəniyyətini qarılıqlı olaraq tədqiq etməklə bağlıdır. Avropada olan elmi ənənələrdən fərqlənərək, Amerika linqvistləri dili və mədəniyyəti antropologiya elminin tərkibinə daxil etmişlər. Bu aspektdə F.Boasın və E.Sepirin xüsusi xidmətləri məlumdur.

Əslində bu məsələ ilk dəfə V.Humboltun yaradıcılığında nəzəri cəhətdən şz həllini tapa bilmişdir. V.Humboltun nöqteyi-nəzərincə, insanın əşyalara münasibəti bütünlükdə dildən asılıdır, dillə yaxından bağlıdır. *"Dil insan ilə xarici aləm arasında "aralıq dünya" mövqeyi tutur və dilin leksikası xüsusi milli dünyagörüşü əks etdirir* " (Leo Baysberker)

Bu sitata əsaslanaraq qeyd edə bilərk ki, leksikanın bir tərkib hissəsi olan etnotoponimlər də xüsusi milli və mənəvi aləmi əks etdirir. Bu kateqoriyanı da Şəki regonundakı tayfa adları əsasında düzələn toponimlər əsasında təhlil etmək olar.

Məlumdur ki, Türk xalqlarının etnik tarixinin hələ də tədqiq edilməmiş problemləri qalmaqdadır. Linqvistika elminin öyrəndiyi mühüm sahələrdən biri də etnosların, etnik adların və bu xüsusda meydana çıxan etnonim və etnotoponimlərin mənşəyini araşdırmaqdır. Bu sahə ilə onomastika elmi məşğul olur. Etnik onomastika da etnolinqvistikanın bir tərkib hissəsi kimi özünü göstərməkdədir. Burada xeqli sayda etnolinqvistik uygunluqlarla qarşılaşmaq olur. İndi türk xalqlarının etnik tarixinin yenidən yazılması da gündəmə gəlməkdədir. Qeyd edək ki, etnonimlərlə təkcə dilşilik elmi deyil, tarix və coğrafiya elmləri də müntəzəm məşğul olur.**(1; 2)** A.Bakıxanovun **(3),** M.Baharlinin **(4)** və digər alimlərin əsərlərində Azərbaycan ərazisində türk, Qafqaz və İran mənşəli etnosların, etnotoponimlərin tarixi –linqvistik izahı bu və ya digər dərəcədə öyrənilmişdir. Bu və ya digər əsərlərdə də etnotoponimlər barədə əsasən tarixi-coğrafi məlumatlar, aparılmış bəzi linqvistik müşahidələr də diqqəti şəkir. **(5; 6; 7; 8; 9; 10)**

Bizə elə gəlir ki, ümumən Azərbaycan xalqının etnogenezinin öyrənilməsində Şəki bölgəsinin etnonimlərini və etnotoponimlərini tarixi-etnolinqvistik istiqamətdə tədqiqata cəlb etmək olduqca əhəmiyyətli araşdırmalardandır.

Onu da qeyd edə bilərik ki, toponimika sahəsində aparılmış saysız-hesabsız tədqiqat işlərinə baxmayaraq, Azərbaycan etnolinqvistikasında toponimlərin, o cümlədən Şəki etnotoponimlərinin yeri və rolu hələ də dəqiq müəyyənləşdirilməmişdir. Nəinki Şəki, elə digər rayonların da tayfa, nəsil və s. əsaslı toponimlərinə qismən toxumulmuşdur, onların milli-mədəni keyfiyyətləri yaddan çıxmışdır. Etnonim və etnotoponimlər daha çox tarixi-coğrafi aspektdə, strukturca öyrənilsə də, onun etnolinqvistik tərəfləri unudukmuşdur. Bizə elə gəlir ki, əsasən bizim araşdırmamızda qədim mənbələrdən Şəki etnonimləri, etnotoponimləri haqqında bütün məlumatları toplamaq, onların variantlarını müəyyənləşdirmək, etnik mənşəyini və Azərbaycan xalqının etnogenezində nə kimi rol oynadığını aydınlaşdırmaqdır. Tarixi faktlar əldə olmasa, dilçilərin etimoloji, etnolinqvistik tədqiqatları yalnız ehtimallardan, gümanlardan ibarət olacaq. Şəki etnotoponimlərinin də kompleks şəkildə fonetik, semantik, morfoloji və s. təhlili də mühüm önəm kəsb edir. Şəki barədə zəngin materiallar bizi gözləyir.

Burada, ilk növbədə toponimika elminin e t n o q r a f i y a ilə əlaqəsindən də danışmaq lazım gəlir. Afad Qurbanov yazır ki, *“Etnoqrafik materiallar xüsusi adların bir qrupunu təşkil edən etnonimlərin tarixi aspektdə araşdırılmasına imkan verir. Xalq, tayfa və qəbilə adlarına etnoqrafik mövqedən yanaşılması həm ekstralinqvistik, həm də linqvistik elmi nəticələr alınmasına gətirib çıxarır. Etnonimlərin bu tədqiqat prosesində etnik onomastika problemləri ön plana çəkilir, etnonimlərin tarixi inkişaf dinamikası, bir xalqa məxsus bir neçə ad və ya bir xalqla başqa xalqlar tərəfindən verilmiş adlar tədqiqat obyektinə çevrilir”* **(11, s.49 (596 s.)**

Öncə, **Şəki etnotoponiminə** olan münasibəti izah edək. **Şəki- saka** tayfasının adını qoruyub saxlayır. Tarixi toponimdir. T.Hacıyev yazır: “Azərbaycan ərazisində eradan əvvəlki minilliklərdə türk etnoslarının mövcudluğuna işıq salan faktlardan biri skiflərin\\sakaların etnik mənşəyinin aşkarlanmasıdır. Azərbaycanda Kür-Araz arasında, Midiyada və ölkənin başqa əyalətlərində eradan əvvəl və sonra skiflərin\\sakaların məskunluğu müxtəlif qədim mənbələrdə təsdiqlənir. Tarixi-müqayisəli etnoqrafik göstəricilər skiflər\\sakaların türklüyünü göstərir. Bu, tarixi-müqayisəli və linqvistik qənaətləri daha da möhkəmləndirir. Azərbaycandakı bir sıra tarixi etnotoponimlər də buna sübutdur: Sakasen, Şakaşen, balasaken...Həmçinin müasir etnotoponimlər: Şəki, Zaqatala\\Zaqarta, Saatlı\Sakatlı (Əslində Sakat “saklar” deməkdir) Bu toponimlərin başqa türk regionlarında işlənmələri də dəlalət edir: Tatarstanda-Şaki. Müasir dövrdə müxtəlif türk xalqlarında türk-sak tayfaları mövcuddur: qırğızlarda- sake, saka, türkmənlərdə_ şaklar, özbəklərdə_ şakay, qazaxlarda_ şaqa və s. Yakut-Abakan ətrafında geniş ərazidə yerləşən türk xalqlarından birinin adı saqaydır” **(12, s.12-13 (200s.)**

Saka adı indiki durumda ümumtürk paleotoponimidir. F.Cəlilov yazır ki, elmi ədəbiyyatda qəmərlərin sakatlarla (skiflərlə) qohumluğu barədə xeyli məlumat vardır. Sakatların isə türkdilli xalq olduğunu və onların Azərbaycana eradan əvvəlki

minillikdə dövlət yaratdığı məlumdur. Heredot həmin dövlətin 28 il davam etdiyini yazmışdır. Sakatların adı (sak) erməni dilində ska (igid, bahadır) şəklində qalmışdır **(13, s.81-83)**

Mifoloji baxımdan bu etnonumə yanaşanların müşahidələrinə görə, Saxa türkləri yurdun üstündən qartal uçanda arxasınca göyə süd atırmışlar **(14, c.19-28)**

Şəki toponimləri milli-tarixi və maddi –müştərək mədəniyyət faktı kimi digər ərazilərdə də yayılmışdır.

*"Şəki xanlarının ixtisar üzrə tarixi" (Əlyazma)* əsərində Şəki vilayətinin ərazi adları da, o cümlədən *sakalar, muqalar, kiş qalası* haqqında da məlumat cerilir. Məsələn, *Kiş qalası* haqqında oxuyuruq: Şəki vilayətinin sərkərdələri bəzisi Kiş qələsini bərkidüb ondə durdilər.**(15, s.2)**

Məlumdur ki, toponimlər əsasən oykonim, oronim və hidronim olmaqla üç qrupa bölünür. O cümlədən, etnonimlər (qəbilə, tayfa, nəsil, tirə, etnik qrup və s. əsasında törənən etnotoponimlər də) belə qruplara ayrılır. Bunlar etnotoponim bazasında etnolinqvistik xüsusiyyətlər kəsb edir. Eyni zamanda, etnotoponimlər 3 qrupda_ etnooykonom, etnooronim və etnohdironim olmaqla təsniflənirlər.

Tədqiq etdiyimiz Şəki toponimləri (etnooykonimlər, etnooronimlər və etnohidronimlər) milli mədəniyyət baxımdan daha çox zənginliyə malikdir. Onlar tarixi-milli işarələrdir. Müəyyən funksional yük daşıyırlar. Şəkidə formalaşan hər hansı bir toponimik vahid bir neçə "aparıcı" formant və məhsuldar modellərlə xarakterizə oluna bilər. Şəkinin etnotoponimik sistemi bir-birindən həmin sistemlərə daxil olan etnotopoleksemlərin iki müxtəlif zaman kəsiyində eyni olmayan tərkibi ilə fərqlənir və bu dildə və dialektdə onomastik formaların xronoloji variantlarının varlığına şərait yaradır.

Şəki etnotoponimlərinin milli mənsubiyyəti (türk, fars, ərəb və Qafqaz mənşəli olmaları) onların sosial xarakteri ilə sıx şəkildə bağlıdır. Bu, hər şeydən öncə, belə bir əlamətdən aydın müşahidə edilir ki, Şəki bölgəsində daha çox işlənən etnos adları milli gözrərici kimi çıxış edir. Məs.: *Quruluq-Quzuluq Şəkinin qədim kənd adı. Burada adın tərkibində fonetik baxımda r-z uyğunluğu müşahidə olunur.*

Bu, atrıca bir mövzudur. Şəki etnotoponimlərinin fonetik xüsusiyyətlərinin izahında ətraflı təhlilini tapacaq.

Şəki bölgəsinin etnotoponimlərinin milli-mədəni senatikaya malik olması aydın nəzərə çarpır. Bu cür adların qrup halındakı və fərdi mənası birbaşa dil və dialektin daşıyıcısı olan xalqın tarixi və mədəniyyətindən törəmədir, hətta həmin adlarda milli-mədəni komponent, çox güman ki, toponimik apellyativlərə nisbətən etnotoponimlərin formalarına, növlərinə daha yüksək dərəcədə xas olan xüsusiyyətdir.

Toponimlər mədəniyyətin əsl qoruyucusu və daşıyıcısıdır. Şəki tayfa adlarının semantikasında genişlənmə də müşahidə olunur. Bunun müəyyən səbəbləri vardır: 1) bəzi tayfaların qaynayıb-qarışması nəticəsində; 2) xalqların yeni tarixi birliyinin

yaranması Məsələn, türk-monqol birliyi öz izini Şəki-Zaqatala zonasında saxlamış MUQAL adında saxlamışdır. Yerli əhali bu adı etnik birliyi məhz türkdilli monqolların qalığı sayırlar: m u- m u ğ- M u q a l-M u ğ a n tayfası. Tayfanın adı bu düzülüşdə inkişaf etmişdir.

Hər hansı bir etnonim və etnotoponimin mənşəyi onun milli-mədəni keyfiyyəti ilə əlaqədardır. Ə.Dəmirçizadə Şəki toponiminin mənşəyi haqqında məqaləsini bu aspektdə araşdırmış və o zaman Şəki rayon qəzetində çap etdirmişdir.**(5)**

A.Məmmədov "Coğrafi adların sirri" kitabında Şəki toponimini tarixi qaynaqlara əsaslanaraq Zaki, "Zaki talası" (yaxud Zaxariya) adlandırmışdır. **(16, s.13-14)**

Şəki (Nuxa) etnotoponiminin Aran knyazı Saxl ibn-Sıbatın (IX əsr) adı ilə bağlı olması barədə Z.M.Bünyadov öz məqaləsində qeyd etmişdir **(17, c. 45-54)**

İ.O.Məmmədov Şəki etnoqrafizmlərini etnotoponim kimi öyrənmişdir. Müəllif məqaləsində maraqlı bir məsələyə toxunur: "Təsadüfi deyil ki, etnoqrafik leksikanın ən məhsuldar, zəngin təbəqəsi olan g e y i m adlarının etnotoponimlər kimi işlənməsi də qədim hadisədir. Geyimlərin səciyyəvi əlamətlərinə görə adlanan müxtəlif tayfa və nəsil adları olmuşdur ki, bunların bir hissəsi etnonim kimi qorunub saxlanmış, qalanları isə toponim kimi formalaşmışdır Azərbaycan ərazisindəki *Ağköynək, Qarabörk, Qaradonlu, Qaradolaq, Qarapapaq, Qaraqalpa*q və b. etnotoponimləri misal göstərmək olar" **(18, s.94 (s.94-96)**

Şəki etnotoponimlərinə məxsus *morfoloji xüsusiyyətlər* də bu ərazinin coğrafi adlarının xalqın etnik tarixi ilə, mədəniyyət-insan amili ilə və bölgənin linqvokulturoloji əlamətlərilə sıx bağlı olduğunu üzə cıxarır.

Biz bu xüsusiyyətləri tarixi kəmiyyət göstəricilərinin Şəki toponimlərində əksi kimi dəyərləndiririk və hələlik aşağıdakı izahı veririk.

*-ar,-ər,-r* formantlı etnonimlər: bu şəkilçi q a r kökündən q-nın düşməsi nəticəsində əmələ gəlmişdir. Sal+qur etnonimi: kan+qat (kəngər), tatar, xəzər, salur, avar və s.

*-lar,-lər* şəkilçisi türk dillərində qədim kəmiyyət göstəricisidir,əsasən peşə, ixtisas, məşğuliyyət anlayışlarını ifadə edir. Həmin göstərici onomastik vahidlərin də tərkibində çox işlənmişdir. Şəki toponimlərində də bu kəmiyyət göstəricisinə xeyli sayda toponimlərin strukturunda rast gəlmək olur. Məsələn, xalq və tayfalar adından ibarət etnotoponimlər: *Udular, Lahıclar, Suvarlar, Qerqerlər, Catdar (Cıtlar), Xoyəzərlər, Qamqardlar, Dilaxlar, Duqaylar, Mindarlar, Undallar, Baqaylar, Şeşallar, Çintallar* və s. Bu haqda bax: **(18, s. 69)** Ətraf şimal rayonlarda da bu tip etnotoponimlər mövcuddur. Məs.: *Gürcülər, Qerzlər, Xınoular, Sumqerlər, Latdar (Latlar)* (Qax).

Qeyd edək ki, Sarvanlar, Sarraclar, Dəmirçilər, Çərçilər, Dərvişlər və s. bu kimi nəsil adları Şəkidə kənd adı ilə yanaşı, məhəllə adlarıdır, mikrooykonimlərdir: Dəmirçilər məhəlləsi, Dərvişlər məhəlləsi və s.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 247-254*

-lar, -lər morfoloji göstəricili digər adlar da çoxdur: Nəbilər, Tahirlər, Dostahmədlər, **Nıxalılar** (Nuxalılar- şivə variantı), Alcanbəylər, Vəliməmmədlər və s. Müqayisə et: Nizamilər, Füzulilər; Mehmanlar (Mehmanların, Mehmangilin sahəsi), Yanıxlar, Satılmışlar, Hoppandılar, Sarılar (nəsil adı), Zərgərlər məhəlləsi və s.

Şəki etnotoponimlərinin tarixi-genetik problemlərini həll etmək üçün *"Suvarlar"* kənd və məhəllə adını izah etmək kifayətdir. Diaxron planda tədqiq edərkən bu toponimin tarixi-genetik xüsusiyyətləri haqqında əsaslı informasiya almaq mümkündür.

Şəki toponimlərinin dialektal xüsusiyyətlərinin şərhində *"Nıxalılar"* (Nuxalılar) oykonimimi izahı maraqlı nəticələr verə bilər.

Bu fakrla yanaşı, türk dillərinin ən qədim dövrlərində kəmiyyət morfoloji göstəriciləri xeyli olmuşdur. Belə ki, pratürk və prototürk dönəmlərində *-n,-t,-r,-z,-l,-ş,-k* elementləri də çoxluq mənasını bildirmişdir. Həmin formantlar yalnız çoxluq-topluluq anlama malik isinlər deyil, həmçinin də etnonim, oykonim, oronim və hidronimlərin formalaşmasında da yaxından iştirak etmişdir. Əlbəttə, bu formantların etnotoponimlərin quruluşnda varlığıbu dilin ən qədim təbəqəsini təşkil etmişdir.

-n kəmiyyət göstəricili: alban, Qazyan, Saqiyan.

-t kəmiyyət göstəricili: bayat, türküt, saket. Alpot.

-z kəmiyyət göstəricili: oğuz, qaqauz.

Bu və ya digər formantlar tarixən Şəki etnotoponimlərinin tərkibində çoxluq və topluluq anlayışlarını ifadə etmişdir.

*-l ı q* şəkilçili toponimlərə də Şəki toponimiyası arasında rast gəlmək olur: Əriklik, Əzgillik, Armudlux (Armudluq), Qozdux (Qozluq), Qındralıq, Baldırganlıq, Pallıttıx (Palıdlıq), Qaratikanlıq; Kötüklük, Çöllüklər, Çaballıq; yerin, relyefinin ifadəsi: Ağlıq, Quruluq, Maralik (Maraqlın), Qaçlıq, Quruluq, Daşdıq (Daşlıq); Kolluq, Quruluq (kəndin qədim adı), 1909-cu ilə qədər, Quruluq, sonra ad qismən dəyişərək Q u z u l u q biçiminə düşmüşdür.

**Nəticə.** Bəllidir ki, tayfa, tirə, nəsil və s. adlarından yaranmış adlar daha qədim toponimlərdir. Qədim şəcərə, soy adlarının coğrafi obyektlərdə daha çox, uzun müddər qorunduğundan əksər hallarda anlaşılmaz şəkildə lur, onu linqvistik baxımdan təyin etmək çətinliyi yaranır. Etnik tayfa adı ilə əlaqədar olan və soy-kökümüzdə iştirak edən bir sıra tayfa adları Şəki bölgəsində təsadüf olunur.

Beləliklə, etnotoponimlər nitqdə başlıca vəzifə kimi adres funksiyası daşıdığığı üçün onlar milli işarə olmaqla milli koloriti əks etdirir. Bu da, ola bilsin ki, etnotoponimlərin əsas vəzifələrindəndir.

Bu adların semantikası müxtəlif və rəngarəndir. Həmin mənalar icərisində insan, nəsil, töröniş, relyf, igidlik, böyüklük,qohumluq, xoşbəxtlik, peçə-sənət, rəng və s. anlayışlar ehtiva olunur. Məs.: Yaranış, törəmə, Oguz (qəbilə, nəsil) və s.

Nəticə olaraq qeyd etmək olar ki, müəyyən etnonimin sözügedən bölgədə işlənməsi onun aid olduğu etnik birliyin formalaşıb qarşıləqlı münasibətdə olduğu etnik mühitdən asılıdır. Bu, əlaqədar etnonimlər sistemi ilə, şübhəsiz, müəyyənləşə bilir.

Hər hansı bir xalqın formalaşmasında iştirak etmiş tayfa, tirə, nəsil və s. etnik qrup adları daha çox etnonimlərdə öz əksini tapır. Həmin xalqın etnogenez probleminin həllində əsaslı rol oynayır.

Beləliklə, Şəkinin etnotoponimik leksikası ilə bağlı aparılmış araşdırma göstərir ki, bu barədə verilən bilgilərin öyrənilməsi, tayfa və nəsillərin, tirələrin yayılma arealının dəqiqləşdirilməsi Azərbaycan xalqının zəngin dil və mədəniyyət və qədim etnik tarixinin bir sıra qaranlıq qalmış problemlərinin həlli üçün də əhəmiyyətlidir.

Beləliklə, Şəki ərazisinə gələn türk tayfaları burada sosial-siyasi şəraitin formalaşmasında, etnik bütövlüyün təşəkkülündə fəal və həlledici rol oynamışlar.

**İstifadə olunmuş ədəbiyyat**

1.Этнонимы. М., 1970

2.Этнография имет. М., 1971

3.Бакыханов А. Гюлистан-и Ирам. Баку, 1991

4.Велиев М.Г. (Бахарлы). Азербайджан \физико-географический, этнографической и экономический очерк \. Баку, 1921

5.Dəmirçizadə Ə. 50 söz. Bakı, 1968

6.Гукасян В., Асланов В. Исследования по истории азерифйджанского языка дописьменного периода. Баку, 1986

7.Гейбуллаев Г. Топонимия Азербайджана. Баку, 1986

8.Гейбуллаев Г. К.этногенези азербайджанцев. 1т. Баку, 1991

9.Алиев К. Этюды о населении дреиного Азербайджана \К проблеме этногенеза азербайджанского народа. Баку, 1984

10.Юсифов Ю.Б. Топонииы и этническая история древногго Азербайджана\ Материалы конференции о проблемач азербайджанской ономастики. Баку, 1986

11.Qurbanov A.M. Azərbaycan dilinin onomalogiyası. Ali məktəb üçün vəsait. Bakı, "Maarif", 1988

12.Budaqova Z., Hacıyev T. Azərbaycan dili. Bakı, Elm, 1992

13.Cəlilov F.A. Qədim türk etnonimləri._Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı, 1988

14.Родионов В.Г. К образу лебеда в жанрах чувашского фольклора._ «Сщиетская тюркогоя», Баку, Элм, 1983, № 6

15.ŞXİT, Kərim ağa Fateh. Şəki xanlarının ixtisar üzrə tarixi.-əlyazması

16.Məmmədov A. Coğrafi adların sirri. Bakı, 1987

17.Буниятов З.М. Новые данные о местоначщждении крепости Шаки. _Доклады А.Н. Азерб. ССР, 1959, т.ХУ, № 9
18.Məmmədov İ.O. Azərbaycan onomastikası problemlərinə dair konfransın materiallartı. Bakı, 1987
19.Mollazadə S.M. Azərbaycanın şimal rayonlarının toponimiyası (rus dilində). Bakı, Maarif, 1979

X Ü L A S Ə
**Azərbaycan etnolinqvistikasında Şəki toponimlərinin yeri və rolu**

Ümumiyyətlə, Azərbaycan xalqının tayfa, nəsil əsasında yaranmış toponimləri az tədqiq edilmişdir. Doğrudur, həmin vahidlərin struktur və leksik-semantik özəlliklərinə bu və ya digər əsərlərdə toxunulmuşdur. Ancaq , xüsusən də, bu onomastik vahidlərin etnolinqvistik keyfiyyətləri araşdırmalardan rənarda qalmışdır. Ona görə də məqalədə ümumən etnolinqvistikada, o cümlədən də Azərbaycanın Şəki rayonu toponimlərinin yeri və rolu müəyyənləşdirilir. Bu yazıda Şəki etnonim və etnotoponimlərinin də Azərbaycan dili leksikasının bir hissəsi olması, dilimizin digər söz qruplarından fərqli, qədim fonetik, qrammatik, leksik-semantik xüsusiyyətlər kəsb etdiyi, Şəki əhlinin sosial-siyasi həyatı ilə bağlılığı və tarixin müxtəlif mərhələsində formalaşması və s. maraqlı misallar əsasında əsaslandırılmışdır.

Şəki etnotoponimlərinə məxsus *morfoloji xüsusiyyətlər* də bu ərazinin coğrafi adlarının xalqın etnik tarixi ilə, mədəniyyət-insan amili ilə və bölgənin linqvokulturoloji əlamətlərilə sıx bağlı olduğunu üzə cıxarır.

Şəkinin etnotoponimikası ilə bağlı aparılmış araşdırma göstərir ki, bu barədə verilən informasiyanın öyrənilməsi, tayfa və nəsillərin, tirələrin yayılma arealının dəqiqləşdirilməsi Azərbaycan xalqının zəngin dil və mədəniyyət və qədim etnik tarixinin bəzi problemlərinin həlli üçün də faydalıdır.

**JALA İLYASOVA**

**SUMMARY**
**PLACE AND ROLE OF TOPONYMS IN AZERBAIJANI ETHNOLINGUISTICS SHEKI**

In general ,the toponyms of the Azerbaijani people based on tribes and generations have been little studied.It is true that the structural and lexical-semantic features of those units have been touched upon in one or other works.But,in particular,the ethnolinguistic qualities of these onomastic units have remained unresearched.Therefore,the article defines the places and role of the toponyms of Sheki region of Azernaijan in ethnolinguistics in general..In this article ,the fact that Sheki ethnoyms and ethnotoponyms are part of the lexicon of the Azerbaijan

language ,that our lamguage has ancient,phonetic,grammatical,lexical-semantic feauters different from other word groups ,its connection with the sociol-political life of the Sheki people and its formation at different stages of history ,etc.based on interesting examples.

The morphological characteristics of Sheki ethotoponyms reveal that the geographical names of this area are closely related to the ethnic history of the people ,the cultural -human factor and the linguistic and cultural characterics of the region.

The research conducted on the ethnotoponymy of Sheki shows that the information gives about it studying ,clarifying the distribution area of tribes and lineages ,dashes is also useful for solving some problems of the rich language and culture ancient ethnic history of the Azerbaijani people.

## РЕЗЮМЕ
## МЕСТО И РОЛЬ ШЕКИНСКИХ ТОПОНИМОВ В АЗЕРБАЙДЖАНСКОЙ ЭТНОЛИНГВИСТИКЕ.

В целом топонимы азербайджанского народа ,с сформировавшиеся по племенному и родовому принципу,мало изучены.Правда,структурные и лексико-семантические особенности этих единиц затрагивались в тех или иных работах .Но,в частности ,неиследованными остались этнолингвистические качества этих ономастических единиц.Таким образом ,в статье определяются место и роль топонимов Шекинского района Азербайджана в этнолингвистике в целом .В данной статье рассматривается тот факт,что шекинские этнонимы и этно топонимы входят в лексикон азербайджанского языка ,что наш язык имеет древние фонетические,грамматические ,лексико-семантические особенности,отличающиеся от других групп слов,его связь с общественно-политической жизнью азербайджанского языка.Шекинский народ и его формирование на разных этапах истории и др. на основе интересных примеров.

Морфологическах характеристика шекинских этнотопонимов показывает ,что географические названия этой территории тесно связаны с этнической историей народа,культурно -человеческим фактором, лингвокультурными особенности региона.

Проведенные исследования по этнотопоними Шеки показывают,что изучение приведенных о нем сведений ,уточнение ареала распространения племен и поколений,черт также полезно для решения некоторых проблем богатого языка и культуры и древней этнической истории азербайджанского народа.

**Rəyçi: fil.f.dok., dosent Fərəh Niftəliyeva**